# QURBANOV ÇİNGİZ SALMAN OĞLU



Çingiz Qurbanov 24 noyabr 1994-cü ildə Qusarın Həzrə kəndində anadan olub. 2012-ci ildə məktəbi bitirmiş, Azərbaycan Texniki Universitetinə daxil olmuş və 2016-cı ildə bitirmişdi. 2016-cı ilin iyul ayında həqiqi hərbi xidmətə çağırılmışdır. Dekabrın 29-da səhər saatlarında Ermənistan Silahlı Qüvvələrinin kəşfiyyat qrupu Azərbaycan-Ermənistan dövlət sərhədini pozmağa cəhd göstərərkən bölmələrimizin pusqusuna düşmüşdür. Düşmən tərəfi döyüş toqquşması zamanı canlı qüvvə sarıdan xeyli itki verərək geri çəkilməyə məcbur edildi. Çingiz postdan çıxıb gələn erməniləri təqib etməyə başlayıb. Çingiz 3 erməni hərbçisini - 1 zabit, 2 əsgəri öldürüb. Özü də orada qəhrəmancasına şəhid olmuşdur. Cəsur əsgərimizin cəsədi 39 gün düşmənin nəzarəti altında olan döyüş ərazisində qalıb. Prezident İlham Əliyevin tapşırığına əsasən aidiyyəti dövlət qurumları tərəfindən beynəlxalq təşkilatlarla birgə görülmüş tədbirlər nəticəsində onun nəşi fevralın 5-də qarşı tərəfdən alınıb. Çingiz Qurbanov fevralın 6-da Qusar şəhərinin Şəhidlər Xiyabanında dəfn edilib. 2017-ci ilin 7 fevralında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2654 nömrəli sərəncamı ilə əsgər Çingiz Salman oğlu Qurbanov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görüldü. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə şəhid Milli Qəhrəmanın xidmət etdiyi posta Çingizin adının verilməsi və qəhrəmanın adının bölüyün şəxsi heyyətinin əbədi siyahısına daxil edilməsi barədə əmri şəxsi heyətə çatdırıb. Döyüş postuna xatirə lövhəsi vurulub. Onun adı Qusar şəhərində mərkəzi küçəyə və Həzrə kəndində vaxtilə təhsil aldığı tam orta məktəbə verilib. Ç.Qurbanovun adını daşıyan küçədə barelyefi qoyulub.